Tədbirdə Təhsil Nazirliyinin Təhsil inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev, İnformasiya şöbəsinin müdir müavini Cəsarət Valehov, Xaricdə təhsil və əcnəbi tələbələrlə iş sektorunun müdiri Həsən Həsənli iştirak ediblər.

Konfransda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" üzrə müsabiqə, Məktəblilərin Fənn Olimpiadaları, SABAH qrupları üzrə imtahanlar, təhsil müəssisələrinin yeni avadanlıqlarla təchizatı, birinci sinfə elektron qəbul, ibtidai sinif müəllimlərinin iştirak etdiyi "Təməl" proqramı və elektron dərsliklər sahəsində yeni layihələr barədə məlumat verilib.

Təhsil Nazirliyinin nümayəndələri jurnalistlərin çoxsaylı suallarını cavablandırıblar.